Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi

birbank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

Ad ______________________ Soyad ______________________

# 8-ci sinif

# TARİX

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1.** V əsrin I yarısında Albaniyada baş vermişdir:

1. Yeni alban yazısının yaradılması
2. Dini kitablar və başqa əsərlərin alban dilinə tərcümə olunması
3. Albaniya hökmdarının dini məclis çağırması
4. Albaniyada mərzbanlıq elan edilməsi

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**2.** E.ə. III minilliyin sonunda su və turukki tayfalarının müstəqillik qazanmasına təsir göstərdi:

A) Kutilərin Akkad dövlətini süquta uğratması
B) Assur dövlətinin Babillə aparılan mübarizədə zəifləməsi
C) Kimmer, iskit və sakların Manna ərazisində məskunlaşması
D) Azərbaycan ərazisindəki dövlət qurumlarının süquta uğraması
E) Urartu və Assurların Urmiya gölü ətrafındakı ərazilər uğrunda mübarizəsi

**3.** Şirvanşahlar dövlətinin XIV əsrin sonları və XV əsrin əvvəlləri tarixi üçün oxşar cəhət:

A) Təbriz şəhərinin ələ keçirilməsi
B) Kəsranilər sülaləsi tərəfindən idarə edilməsi
C) Qızıl Ordunun yürüşlərinə qarşı mübarizə aparılması
D) Qaraqoyunlu dövlətindən asılılığın qəbul edilməsi
E) Teymurilər dövləti ilə ittifaq qurulması

**4.** Yusif ibn Əbu Sac və Fəzl ibn Məhəmmədin öz dövlətinə birləşdirdiyi ərazini müəyyən edin:




A) 1
B) 2
C) 3
D) 4
E) 5

**5.** Şah I Abbasın həyata keçirmək istədiyi iqtisadi tədbir:

A) Tamğa və bac vergisinin ləğv edilməsi
B) Vahid ölçü, pul, çəki sisteminin yaradılması
C) Şərqdən Avropaya gedən ticarət yolunun Osmanlıdan Səfəvi ərazisinə keçirilməsi
D) Tiyul torpaqlarının paylanmasının məhdudlaşdırılması
E) Almaniya ilə ticarət müqaviləsinin imzalanması

**6.** Şəkili Hüseyn xanın hakimiyyətinin ilk illərində qubalı Fətəli xanla müttəfiqlik siyasəti yeritməsinin səbəbi:

A) Fətəli xanın köməyi ilə hakimiyyətə gəlməsi
B) II İraklinin Şəki ərazisinə hücum etməsi
C) Pənahəli xanın Hüseyn xana qarşı Azərbaycan xanları ilə ittifaq qurması
D) Bakı xanlığını ələ keçirmək istəməsi
E) Fətəli xanın Dağıstan hakimlərinin hücumuna məruz qalması

**7.** Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




a. Rusiya dövləti ilə ticarət müqaviləsinin imzalanması
b. "Müqəddəs birlik" tərəfindən gələn ittifaq təklifinin rədd edilməsi
c. Rusiya və Osmanlının Azərbaycan torpaqlarını işğal etməsi
d. Əhalini siyahıyaalınması keçirilməsi
e. Əfqan üsyançıları tərəfindən hakimiyyətdən devrilməsi

A) 1-a; 2-b,c; 3-d,e
B) 1-b; 2-d,e; 3-a
C) 1-d; 2-a,e; 3-b,c
D) 1-a,e; 2-d; 3-b,c
E) 1-b,d; 2-e; 3-a

**8.** Daha əvvəl baş vermişdir:

A) Avropalıların Çinə gəlməsinin qadağan edilməsi
B) Sultan III Əhmədin hakimiyyətdən devrilməsi
C) Kokand xanlığının meydana gəlməsi
D) Nadir şahın Dehlini ələ keçirməsi
E) Ağa Məhəmməd Qacarın Zəndlər üzərində qələbə qazanması

**9.** Hadisə-nəticə əlaqəsini müəyyən edin.

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Sınıq körpü döyüşünün baş verməsi | Osmanlı-Krım qüvvələrinin məğlub edilməsi |
| B) | Şirvanın Səfəvi dövlətinə birləşdirilməsi | Dərbəndin Səfəvi dövlətinin əsas liman şəhərinə çevrilməsi |
| C) | Paytaxtın İsfahan şəhərinə köçürülməsi | Təbrizin iqtisadi və siyasi əhəmiyyətini itirməsi |
| D) | Niyazabad döyüşünün baş verməsi | Qarabağ və Gəncənin Osmanlıdan azad edilməsi |
| E) | 1591-ci ildə Təbrizdə üsyanın baş verməsi | Osmanlı qoşunlarının Təbrizdən qovulması |

**10.** Üçmüəzzin döyüşünün Muradtəpə döyüşü ilə oxşar, Çıldır döyüşündən fərqli xüsusiyyətini müəyyən edin.

1. Səfəvi qoşunlarının qələbə qazanması
2. Şah I Abbasın hakimiyyəti dövründə baş verməsi
3. Nadir xanın Səfəvi ordusuna rəhbərlik etməsi
4. Əfqanların Səfəvi torpaqlarından qovulması ilə nəticələnməsi

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**11.** Teymuri hökmdarı Əbu Səidin fəaliyyətinə aiddir:

a. Cahanşahla barışıq müqaviləsi imzalanması
b. Həsən padşahla müharibə aparması
c. Qızıl Ordu dövlətinə yürüş etməsi
d. Naxçıvan və Xorasanda üsyanları yatırması

A) a, b
B) b, c
C) c, d
D) a, c
E) b, d

**12.** Uyğunluğu müəyyən edin.

1. N.Kopernik
2. C.Bruno
3. İ.Quttenberq

a. Çap üsulu ilə ilk kitabı buraxmışdı
b. Yerin həm öz oxu ətrafında, həm də Günəş ətrafında fırlandığını bildirmişdi
c. Kainatın sonsuz olduğunu göstərirdi

A) 1-a, 2-b, 3-c
B) 1-c, 2-a, 3-b
C) 1-b, 2-c, 3-a
D) 1-a, 2-c, 3-b
E) 1-b, 2-a, 3-c

**13.** Məntiqi ardıcıllığı tamamlayın.

1. VII əsrin əvvəllərində Sasani-Bizans müharibəsinin başlanması
2. ..........................................................
3. Sasanilərin ağır məğlubiyyətə uğraması

A) Türklərin Bizans tərəfindən savaşa girməsi
B) Məzdəkilər hərəkatının başlanması
C) Ağ Hun dövlətinin Bizansla ittifaq qurması
D) Göyçə gölü sahilində həlledici döyüşün baş verməsi
E) Cavanşirin Bizans imperatoru ilə müttəfiq olması

**14.** Şərqdə erkən feodalizm dövrünə aid hadisələri müəyyən edin.

1. Ağ Hun dövlətinin əsasının qoyulması
2. Monqolların Avropanın cənub-şərq hissəsinə yürüşləri
3. Əmir Teymurun Dehli sultanlığına yürüş etməsi
4. Xəzər xaqanlığının ərəblərlə müharibələr aparması
5. Samani dövlətinin qaraxanlılar və qəznəlilər arasında bölüşdürülməsi

A) 1, 2, 3
B) 2, 3, 4
C) 3, 4, 5
D) 1, 2, 5
E) 1, 4, 5

**15.** Osmanlı sultanı III Səlimin hakimiyyəti dövrünə aid deyil:

a. Avstriya ilə sülh müqaviləsinin imzalanması
b. Krımın Rusiya tərəfindən işğal edilməsi
c. Durğunluq dövrünün başlanması
d. Xarici tacirlərin fəaliyyətinin məhdudlaşdırılması
e. Hərbi mühəndislik məktəbinin fəaliyyətinin gücləndirilməsi

A) b, c
B) a, c
C) d, e
D) b, d
E) a, e

**16.** Mətni oxuyun və kimə aid olduğunu müyyən edin:

"O, görkəmli şəxsiyyət idi. Hələ uşaqlıq vaxtından etibarən şəxsi şücaətləri, qətiyyəti və əməksevərliyi ilə seçilirdi….təsviri incəsənətə dəyər vermir, poeziyanı sevmədiyi üçün onu oxumağı vaxt itkisi hesab edirdi".

A) II Təhmasib
B) Ağa Məhəmməd Qacar
C) Kərim xan Zənd
D) Evrəngzib
E) Nadir şah

**17.** Qazıqumuxlu Surxay xanın oğlu ilə ittifaq bağlayaraq üsyana başçılıq etmişdir:

A) I Sam mirzə
B) II Sam mirzə
C) III Sam mirzə
D) Hacı Davud
E) Nəsrullah mirzə

**18.** Əhəmənilər dövlətinin mövcudluğu dövrünə aid deyil:

A) Roma respublikasının yaranması
B) Xeroneya döyüşünün baş verməsi
C) Selevkilər dövlətinin yaranması
D) Yunanıstanda şəhər-dövlətlərin mövcud olması
E) Yunan şəhərlərində açıq hava teatr salonlarının tikilməsi

**19.** Klassik feodalizm dövrünə aid olmayan hadisələri müəyyən edin:

1. Frank imperiyasının parçalanması
2. Monqolların Avropanın cənub-şərq hissəsinə yürüşləri
3. Oğuz dövlətinin əsasının qoyulması
4. Osmanlı qoşunlarının Ankara döyüşündə məğlub olması
5. "Xalqların böyük köçü"nün başa çatması

A) 1, 2, 3
B) 1, 3, 5
C) 3, 4, 5
D) 2, 3, 5
E) 2, 4, 5

**20.** Pul götürən şəxsin yazılı öhdəlik sənədi adlanır:

A) Tədavül
B) Çek sistemi
C) İndulgensiya
D) İnkvizisiya
E) Veksel